Yazan
10.09.15 22:29 -



Neftin qiymətləri Çin və Yaponiya kimi ölkələrin iqtisadi statistikalarının açıqlamasından sonra enir.

Dalga TV Oxu.Az-a istinadən xəbər verir ki, bu iqtisadi statistikaların açıqlanmasından sonra artıq investorlar anlayırlar ki, bu ölkələrdə iqtisadi artım azalır.

Belə ki, iyulda Yaponiyada maşınqayırma məhsullarına sifarişlərin həcmi 3,6% azalıb. Halbuki bu dövr üçün 3,7%-lik artım proqnoz edilirdi. Avqustda Çində istehsalçıların qiymət indeksi keçən ilin anoloji dövrü ilə müqayisədə 5,9% aşağı düşüb. Bu da 2009-cu ildən bu yana maksimal düşmə olaraq qeydə alınıb.

“Standard & Poor”s reytinq agentliyi çərşənbə günü “zibilə” qədər Braziliyanın kredit reytinqini azaldıb, halbuki yalnız yeddi il əvvəl o ilk dəfə investisiya səviyyəsli reytinq almışdı. Braziliya, Çin xammalın ən böyük təchizatçılarından biridir və yaxın vaxtlara qədər dünya iqtisadiyyatının lokomotivlərindən biri hesab edilirdi.

İstehlakın daha azalmasına baxmayaraq, OPEK ölkələri dünya bazarında payını itirməmək üçün neftin istehsalını aşağı salmır.

“2015-ci ilin birinci yarım ilində Səudiyyə Ərəbistanı Asiyada yeddi iri ticarət tərəfdaşına sutkada orta hesabla 4,4 milyon barel neft ixrac edib ki, bu da bu dövr ərzində ölkənin ümumi neft ixracının yarıdan çoxunu təşkil edib”-deyə, ABŞ-ın Energetika İnformasiya İdarəsinin hesabatında deyilib.

Qeyd edək ki, bu gün Brent markalı neftin qiyməti 46, Texas markalı neftin qiyməti isə 43 dollara

enmişdi.